Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
28 oktyabr / 2021

**Həmişə Şəhidlər Xiyabanında olanda, şəkillərdən boylanan məsum çöhrələrə baxanda, nənəmin bir sözünü xatırlayıram: "Bu uşaqlar əsgərlikçün elə tez böyüyürlər e...".**

Görəsən, nənəm indi sağ olsaydı, müharibə üçün daha tez böyüyən bu uşaqların haqqında nə deyərdi? Şəhid analarının düşüncəsində hələ də körpə kimi qalan bu gənclər necə də tez böyüdülər, necə tez kişiləşdilər, qanı düşmənin önündə necə sinələrini sipər elədilər, necə güllənin dik gözünə baxa-baxa irəlilədilər, güllə yağışı altında kənd-kənd, rayon-rayon torpaqlarımızı azad etdilər?....

# Şəhid Ayaz Xəlilov: "Ya əlimdə bayraq gələcəyəm, ya da bayrağa bükülü"




**Növbəti qapını Şəhid Ayaz Qnyaz oğlu Xəlilovun sorağı ilə axtardım. Anası Xalidə xanım qarşıladı məni. Çox həlim, sakit, gözəl bir insan kimi ilk baxışda sevdim onu. Çox doğma göründü mənə. Niyəsini bilmirəm, amma söhbətimiz tutdu. Çox danışmadı, amma nə danışdısa, ürəkdən danışdı:** "Nə deyim, hamı kimi uşaqdır. Məktəbə getməmişdən oxuyub-yazmağı bacarırdı. Şəkillər çəkirdi. Ən çox maşın şəkilləri çəkirdi, deyirdi maşındüzəldən olacağam. Dərslərini orta oxuyurdu, musiqini yaxşı oxuyurdu, Bakıxanovda idmanla məşğul olurdu...

Sakit uşaq idi, amma şən idi, zarafatcıl idi. Dostları var idi, amma bizim uşaqlar evə dost gətirən deyillər. Özündən böyük Sahil və Samir adlı qardaşları var. Mehriban olublar, amma sirdaş olmayıblar, hərənin özünə uyğun dostları var. Ayazın da çoxlu dostu var idi. Ünsiyyətcil idi, hamı ilə isti münasibət qura bilirdi..."

Xalidə xanım hər dəfə bir sualı cavablandırandan sonra bir müddət sükut edirdi. Sanki nəyi dedi, nə qaldı deyə düşünürdü, amma yenə də qısa danışırdı. Hərdən içində ah çəkirdi. Kövrəlirdi, amma özünü saxlayırdı. Sonra növbəti sualın cavabını hazırlayırdı və yenidən danışmağa davam edirdi: "Səfərbərlik olduqda qardaşı Samir sentyabrın 21-də Ağdama göndərildi. Ayaz da könüllü getmək istəyirdi, mən qoymadım. Sonra çağırış vərəqəsi gəldi, yola düşdü Goranboya, ordan da Tərtərə göndərildi. Oktyabın 6-da şəhid olmuşdur. Gedəndə nənəsi Rəxşəndə onu Quranın altından keçirdi, Ayaz dedi ki: "Ora gedənin iki yolu var, ya əlimdə bayraq gələcəyəm, ya da bayrağa bükülü"...

Xalidə xanım özünü saxlaya bilmədi. Göz yaşları yanağına süzüldü. Bilirdim ki, ürəyindən qara qanlar axır. Bir müddət gözləri yol çəkdi. Ana baxırdı. Çox uzaqlara baxırdı. Bəlkə oğlunun şəhid olduğu yerə, bəlkə dəfn olunduğu yerə, bilmədim, heç soruşmadım da, düzü şəhid anasının onsuz da qaysaq tutmayan yarasını qanatmaq istəmədim. Növbəti sualımla onu kədərli səhnələrdən ayırmaq istədim. Dedi: "Tez-tez zəng vururdu, hətta bəzən gündə 1-2 dəfə zəng vururdu. Deyirdi ki, sakitçilikdir, narahat olmayın. Axırıncı dəfə oktyabrın 4-də telefon danışığımız oldu, dedi ki, işıq yoxdur, bir neçə gün zəng edə bilməyəcəyəm, narahat olma. Biz də sakit oturduq. Demə həmin vaxtda onları Tərtərə göndəriblər, orada da işıq yox imiş. Oktyabrın 5-də döyüşüb, qayıdıb, oktyabrın 6-da döyüşə girib şəhid olub. Gördük 19-a kimi zəng gəlmədi, qardaşı axtarmağa başladı. Tərtərə getdi, orada dedilər ki, itkinlərin siyahısındadır. 26-da atasına zəng gəldi ki, neytralda olub, nəşini tapıblar. Atası ilə qardaşı Sahil getdilər Bərdəyə. Nəşinə baxıb tanımışdılar, amma demişdilər ki, Prezidentin sərəncamına görə, analiz olunmalıdır. DNT testindən sonra noyabrın 1-də gətirdilər Ucarda dəfn olundu...".

**Xalidə xanım bir qədər susdu və birdən dedi:** "Əsgər gedəndə demişdi ki, şəhid olacağam, amma salamat gəldi. Ona görə indi də şəhid olacağını gözləmirdim, heç gözləmirdim. İki qardaş cəbhədə idi. Samir Ağdamda idi. Ayazın şəhid xəbərini bilməmişdi. Qardaşı Sahil 27-də gedib Samiri gətirməyə, elə bilib ki, nənəsi rəhmətə gedib, ona görə Sahil onu aparmağa gəlib. Gələndə yolda Ayazı çox soruşub, Sahil də onun şəhid xəbərini deməyə məcbur olub. Samir 10 gün evdə qaldı, noyabrın 5-də yenidən cəbhəyə qayıtdı. Qardaşı şəhid olduğuna görə 8-də evə buraxıldı...".

**Ayazın qardaşı Sahilin həyat yoldaşı Çinarə də söhbətimizə qoşulur:** "Ayazla çox mehriban olmuşuq, uşaqlıqdan qonşu olmuşuq, bir yerdə böyümüşük. Ona görə mənə doğma adam olub. Ayazın şəhid olmağına inanmazdım, Samirə bəlkə inanardım. Çünki, Samir sakitdir. Ayaz çox diribaş uşaq idi. Heç nəyi unutmazdı. Bayramlarda təbrik edərdi. Axırıncı dəfə ad günümdə işdən icazə alıb gəlib məni təbrik etdi, qapıdan hədiyyəsini verib getdi, tələsirdi, dayanmadı.

Qardaşının uşaqlarını da çox sevərdi. Heç vaxt adımı deməzdi, mənə "Tombiş" deyirdi. Bacı-qardaş kimi olmuşuq. Müharibəyə gedəndə deyirdi ki, mən şəhid olacağam, mənlə fəxr edəcəksiniz. Dediyi kimi də oldu...".

**Ayazın kiçik qardaşı Samir Xəlilovun bizə göndərdiyi məlumatı burada veririk:** "Ayaz Qnyaz oğlu Xəlilov 1998-ci il yanvarın 25-də Ucarın Alpout kəndində anadan olmuşdur. İki il Alpout 1 saylı məktəbdə təhsil almış, ailəlikcə Bakıya köçdüklərindən, təhsilini üçüncü sinifdən Maştağa qəsəbəsindəki 128 saylı məktəbdə davam etdirmişdir. 2010-2015-cü illərdə Maştağadakı 10 saylı Musiqi məktəbində kamança üzrə təhsil almışdır.

2015-ci ildə orta məktəbi bitirmişdir. 2016-cı ildə iyulunda hərbi xidmətə çağrılmışdır. İyulun 25 Gəncəyə yola düşmüş, 3 aydan sonra Murova göndərilmiş axıra kimi orada xidmət etmişdir. 2018-ci ildə əsgərlikdən qayıtmış və maşın elektriki peşəsinə yiyələnmiş, müharibə başlayana kimi Zabratda maşın servisində çalışmışdır.

Ayaz çox mərd oğuldu. Heç nədən qorxmurdu. İçində güclü vətənpərvərlik hissi var idi. Özü öz arzusuyla döyüşlərə qatıldı, şəhid oldu...".

**Ayazın böyük qardaşı Xəlilov Sahil deyir:** "Ayaz bizim evin sonbeşiyidir. Nə qədər böyüsə də, mənim üçün həmişə uşaq idi. Çox şən və mehriban idi, adama canını qurban edərdi. Elə yaxşı xasiyyəti vardı. Bir qardaş kimi də çox yaxşı idi, balaca olsa da böyük qardaş kimi hamının əziyyətini çəkmək istəyirdi. Ayaz haqqında çox danışa bilərəm, amma yazılsa, onu nə yer tutar, nə göy tutar...

Prezidentin 2020-ci il 29 sentyabr sərəncamına əsasən səfərbərlik elan olunanda Ayaza da çağırış vərəqəsi gəldi. Ayaz çox sevinirdi. Nə qədər dedik ki, bu gün qal, sabah gedərik, dedi yox, indi gedək. Getdik, səhər sentyabrın 30-da Ayazı Ucar rayonunun hərbi komissarlığından Goranboya yola saldıq. Yola düşəndə mənə dedi: "Özünüzə yaxşı baxın. Mən şəhid olacağam, mənə bulaq tikdirərsən....

Oktyabrın 4-ə kimi danışırdıq, amma sonra zəngi kəsildi. Oktyabrın 18-ə kimi gözlədik. Ayın 19-dan qardaşımı axtarmağa başladıq. Çox yerlərdə olduq. Ayın 26-da onun şəhid olduğunu öyrəndik. Eşidəndə çox pis oldum. İnanın ki, şəhid olduğunu bilsəm də, hələ də onu gözləyirəm. Bəlkə bir gün gələr deyə düşünürəm. Ayaz həmişə mənim ürəyimdə yaşayacaq. Qəlbi gözəl qardaşımın məkanı cənnət olsun...".

Ayazın döyüşçü yoldaşı Xəyyam Arif oğlu Hüseynli deyir: "Ayaz Xəlilov oktyabrın 10-da axşam radələrində bizim bölüyə qoşuldu. Elə gəldiyi andan bölük üzvləri ilə isti münasibət qura bildi. Az bir zamanda öz mərifəti, qanacağı ilə həm komandirin, həm də bölük yoldaşlarının hörmət və sevgisini qazandı. Daha sonra özünü Vətən uğrunda, bayraq uğrunda, qeyrət, namus uğrunda əsl vətənpərvər kimi göstərdi...

**Oktyabrın 5-də səhər 6-7 radələrində bizə hazırlaşmaq əmri verildi. Biz maşınlara minib əvvəlcədən təyin olunmuş nöqtəyə gəldik. Bizə döyüş haqqında məlumat verildi və 11-də yola düşəcəyimiz bildirildi. Bu zaman könüllü kimin gedəcəyi deyildi və 14 nəfər könüllü ayrılıb maşınlara mindik. Birinci maşına minənlərdən biri də Ayaz Xəlilov idi. Saat 12-dən sonra təyinat nöqtəsinə, el arasında Tülkü dərəsi deyilən əraziyə çatdıq. Qərargah rəisimiz Baş leytenant Əlvan Ələsgərov mənə "özünlə birlikdə 5 nəfərlik qrup yarat" dedikdə, mən də səsləndim ki, mənimlə bir qrupda kim olmaq istəyir, Xəlilov Ayaz, Tağıyev Əkbər, Qəhrəmanov Elnur, Şirəliyev Turan səsləndilər...**

Həmin gün Ağdərə istiqamətində döyüşümüz oldu, lakin irəliləyə bilmədik. Həmin gün itkimiz olmadığı üçün sevinmişdik, lakin hər kəs həqiqi döyüşün nə olduğunu anlamışdı. Gecə saat 23 radələrində bölüyümüzə qayıdıb, sabaha hazırlıq gördük. oktyabrın 6-da yenidən ön xəttə yola düşdük. Maşında gedərkən Ayazın, Əkbərin, Elnurun üzündə elə bir nur var idi ki, düzü bu işıqdan bir qədər vahimələndim, sanki onlara nəsə olacaqmış kimi bir hiss məni bürüdü. Hər şeyə rəğmən ölümə gedəcəyimizi bilə-bilə, üzümüzdəki təbəssüm, dilimizdəki hərbi mahnılar döyüşdən qorxmadığımızı, əksinə vətənin hər qarışı uğrunda gedən döyüşlərə sevə-sevə getdiyimizi göstərirdi. Saat 12-də artıq Ağdərə istiqamətində irəliləmək əmri verildi və yarımqrup olaraq arada 3-5 metr olmaqla irəlilədik. Bilə-bilə güllə qabağına, minomyot qabağına getmək insandan böyük hünər, qeyrət, şücaət istəyir. Bunların hamısı Ayazda var idi, o anda öndə gedənlərdən biri də Ayaz idi. Elə həmin döyüşdə düşmən gülləsinə, minomyot mərmisinə tuş gəldi, gülə-gülə qəhrəmancasına şəhidlik zirvəsinə ucaldı. Allah vətənpərvər qardaşımıza qəni-qəni rəhmət eləsin...".

**Ayazın döyüşçü yoldaşı Tural Ağasiyev deyir:** "Mən sentyabrın 21-də səfərbərlik elan olunan kimi könüllü orduya yazılmışam. Sentyabrın 27-də müharibə başlayan gündən döyüşlərdə olmuşam. Sentyabrın 29-da Ayaz Xəlilov bizim Həmlə dəstəmizə qoşulub. Ayaz qardaşım çox gözəl qəlbli insan, əsl vətənərvər oğullardan idi. Məndən yaşca balaca olsa da, onunla dost idik. Mən Ayaz qardaşımı çox istəyirdim. Ayaz çox mərd adam idi. Yerin bilən idi, böyük-kiçik bilən idi, böyük qardaş kimi həmişə hörmətimi saxlayırdı...

**Dəfələrlə əməliyyatlarda bir yerdə olmuşuq. Suqovuşanda, Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişik. Oktyabrın 6-da axırıncı dəfə Ağdərə istiqamətində gedən döyüşə də bir yerdə girdik. Oktyabrın 6-da mən iki qıçımdan yaralandım, başımdan zərbə aldım. Ayaz şəhid oldu, mənim əllərin üstündə can verdi. Axırıncı sözü bu oldu:** "Qardaş, özünüzdən muğayat olun, Vətən sağ olsun". Mən ağladım, onu silkələdim, ilk tibbi yardım eləmək istədim, amma gec idi. Ayaz Xəlilov qəhrəmancasına şəhidlik zirvəsinə ucaldı. Məni bağışlayın, çox danışa bilmirəm, çox pis oluram. Allah bütün şəhidlərimizə rəhmət eləsin, ailəsinə səbr versin. Allah qardaşımın şəhadətini mübarək eləsin...".

128 saylı məktəbdə oxudu müddətdə Ayaz Xəlilovun sinif rəhbəri olan Çiçək müəllim deyir: Ayaz çox sakit uşaq idi. Heç səsi çıxmazdı. Müəllimlərinə və sinif yoldaşlarına hörmətlə yanaşırdı. Heç kimin xətrinə dəymədi. Şəhid olduğunu eşidəndə həm kədərləndik, həm də fəxr elədik...

Oktyabrın 16-da 128 saylı məktəbin kollektivi Ucarın Alpout kəndində olduq. Məktəbimizin şəhidi Ayaz Qnyaz oğlu Xəlilovun məzarını ziyarət etdik. Qızxanım müəllimə, Səriyyə müəllimə, 8-ci və 9-cu sinif şagirdləri, şəhidimizin anası Xalidə xanımla birlikdə şəhidimizin ruhuna dualar oxuduq. Şagirdlərimiz Şəhid Ayazın məzarı üstünə tər çiçək dəstələri qoydular, sonra vətənpərvərlik ruhunda şeirlər söylədilər. Ayazın xatirəsinə həsr edilmiş bulağın qarşısında xatirə şəkli çəkdirdik. Şəhidimizin anası Xalidə xanıma başsağlığı verdik, ona Allahdan səbr dilədik. Vətən sağ olsun, şəhidimizin ruhu şad olsun...".

**Biz də deyirik ki, Allah şəhidimizə rəhmət eləsin, ruhu şad olsun, Allah ailəsinə səbr versin...**

**Sona XƏYAL**